20 saylı 2/6

**office**

---

**От:** Elvin Nesirov <nesirovelvin093@gmail.com>
**Отправлено:** 11 марта 2026 г. 23:21
**Кому:** office@barassociation.az
**Тема:** Tessekkur mektubu

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri
Hörmətli cənab Anar Bağırova!
Hörmətli cənab Anar mellim Sizə göstərdiyiniz diqqət və qayğıya görə səmimi minnətdarlığımı bildirirəm.
Mən – Astara rayon Ərçivan qəsəbə sakini, Polis Veteranı ailəsində böyümüş, hüquq-mühafizə orqanlarında uzun illər xidmət etmiş bir insanın oğlu, eyni zamanda Aprel döyüşlərinin və İkinci Vətən müharibəsinin iştirakçısı Nəsirov Elvin Eynulla oğlu olaraq, ölkəmizdə hüququn aliliyinin qorunması və vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində rəhbərlik etdiyiniz Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətini yüksək qiymətləndirirəm.
Xüsusilə qeyd etmək istəyirəm ki, vəkil Emin Suvarovun Vətəninə, millətinə və torpağına bağlı, Şəhid atasının adına layiq bir övlad kimi öz peşəsinə böyük məsuliyyət və sədaqətlə yanaşır. Hüquq-mühafizə orqanlarında xidmət etmiş bir insanın oğlu olaraq mən də yaxşı anlayıram ki, qanuna, dövlətə və ədalətə sadiq qalmaq böyük vicdan və məsuliyyət tələb edir. Emin Suvarovun məhz bu ali dəyərlərə sadiq qalaraq vəkillik adını şərəflə daşıyan, öz peşəsinə ürəkdən bağlı olan bir hüquqşünas kimi qanun çərçivəsində, vicdanla və böyük əzmkarlıqla fəaliyyət göstərir.
Onun vətəndaşlara göstərdiyi diqqət, hüquqi məsələlərə peşəkar və prinsipial yanaşması, ədalətin bərqərar olması naminə göstərdiyi səylər və dövlətimizə, xalqımıza olan sədaqəti həqiqətən də yüksək qiymətə layiqdir. Belə layiqli və vətənpərvər hüquqşünasların fəaliyyəti həm Vəkillər Kollegiyasının nüfuzunu artırır, həm də cəmiyyətimizdə ədalətə və qanuna olan inamı daha da möhkəmləndirir.
Bu baxımdan Sizdən hörmətlə xahiş edirəm ki, vəkillik adını şərəflə daşıyan, öz peşəsinə ürəkdən bağlı olan Emin Suvarovun fəaliyyətini nəzərə alasınız və onun göstərdiyi bu yüksək xidmətə görə öz təşəkkürünüzü bildirərək, qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq həvəsləndirmə tədbirlərinin həyata keçirilməsinə diqqət yetirəsiniz.
Bir daha Sizə minnətdarlığımı bildirir, məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar, möhkəm cansağlığı və Vətənimizə xidmət yolunda davamlı nailiyyətlər arzulayıram.

Hörmətlə,
Nəsirov Elvin Eynulla oğlu
Aprel döyüşlərinin və İkinci Vətən müharibəsinin iştirakçısı
Polis veteranı ailəsinin övladı
Astara rayon Ərçivan qəsəbə sakini.
Əlaqə nomre 0519522170

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1247
«12» 03 2026